# GƏNC TAMAŞAÇILARIN QOCAMAN TEATRI



*Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 75 yaşı tamam olur.*

Gənc Tamaşaçılar Teatrı pioner və məktəblilərin bədii özfəaliyyət dram dərnəklərini birləşdirən Bakı Uşaq Teatrı əsasında yaranıb. Vaxtilə məktəblilərin aktyorluq sənətinə həvəsi nəzərə alınaraq bir sıra pioner dəstələrində dram dərnəkləri təşkil edilirdi. Belə dram dərnəklərindən biri də Xəzər dənizçiləri klubunun nəzdindəki 40 nömrəli pioner dəstəsinin dərnəyi idi. Sonralar bu dram dərnəklərinin fəaliyyətini genişləndirmək məqsədilə şəhər komsomol komitəsi yanında uşaqlardan ibarət dram dərnəyi təşkil edilir. 14 yaşlı pioner Ağadadaş Qurbanov dərnəyə rejissor təyin olunur.

1927-ci il mart ayının 15-də Bakıda yeni bir teatr afişası görünür: "Dəstə rəhbəri Lətif Kərimlinin "Fırtına" tamaşası". 14 yaşlı Ağadadaş Qurbanovun təşəbbüsü ilə hazırlanan tamaşa respublikada uşaq teatrı yaratmaq meylini gücləndirdi. 10 gün sonra pionerlər ilk dəfə olaraq İşçi-Kəndli Teatrının binasında Bakı fəhlələri qarşısında çıxış etdilər. 1927-ci il mayın 31-də həmin tamaşa Əli Bayramov adına qadınlar klubunun binasında Azərbaycan LKGİ-nin VIII qurultayının nümayəndələrinə göstərildi. Pionerlərin uğurlu çıxışlarından razı qalan qurultay nümayəndələri Bakıda Uşaq Teatrı yaratmaq haqqında Azərbaycan Xalq Maarif Komissarlığı qarşısında məsələ qaldırdılar.

1928-ci il oktyabrın 5-də Azərbaycan Xalq Maarif Komissarlığının qərarı ilə Bakı Uşaq Teatrı rəsmi olaraq fəaliyyətə başladı. Bu teatrın ilk qaranquşları Ağadadaş Qurbanov, Məmmədağa Dadaşov, Yusif Əminli, Mina Abdullayeva, Yusif Dadaşov, Susanna Məcidova, Cəvahir İsgəndərova, Süleyman Ələsgərov, Hüseynağa Sadıxov, Kərim Həsənov, Zəfər Nemətov, Məhərrəm Haşımov, Əliməmməd Atayev və başqaları oldular.

1936-cı il iyul ayının 18-də Azərbaycan Xalq Maarif Komissarının əmrinə əsasən Bakı Uşaq Teatrı "Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı" adlandırıldı və ona M.Qorkinin adı verildi.

Teatrın rus bölməsi 1928-ci il noyabr ayının 6-da N.Smirnov və S.Şerbakovun "Beş nəfər" adlı tamaşası ilə, Azərbaycan bölməsi isə 1930-cu il yanvar ayının 30-da N.İvanterin "Qırmızı qalstuk əleyhinə" adlı tamaşası ilə fəaliyyətə başladı.

İlk illər teatrın öz təmayülünə uyğun dram əsərlərinə, professional rejissorlara, aktyor və rəssamlara böyük ehtiyacı vardı. Uşaq dramaturgiyası isə ölkəmizdə yenicə yaranmağa başlayırdı. Çox keçmədi ki, kollektivdə həvəskar dramaturqlar yetişməyə başladı. Məmmədağa Dadaşov, Əliməmməd Atayev, Əhməd Əhmədov və Zəfər Nemətovun "Döyüş", "Həqiqi əlac", "Qaralar ölkəsində", "Sürət", "Çelyuskinlər" əsərləri teatrın repertuar ehtiyacını qismən də olsa ödədi. Tamaşaların musiqi tərtibatı sahəsində N.Rüfətov, M.Vaynşteyn kimi gənc bəstəkarlar çalışırdı. Rəssamlardan Ə.Həsənov, S.Şərifzadə, F.Qusak, N.Kovalenko öz yığcam və mənalı quruluşları ilə fərqlənirdilər.

1936-cı ildə Moskvada rejissorluq fakültəsini bitirib, Bakıya qayıdan M.Haşımov teatrın bədii rəhbəri, baş rejissoru təyin olundu. M.Haşımov teatrın hər iki bölməsində V.Lyubimovanın "Seryoja Streltsov" əsərini müvəffəqiyyətlə tamaşaya hazırladı.

1937-ci ildə Azərbaycanın görkəmli uşaq yazıçısı A.Şaiq teatrın ədəbi hissə müdiri təyin olundu. İlk milli uşaq dramaturgiyasının bünövrəsini qoyan A.Şaiqin "Xasay", "Eloğlu", "Fitnə", Mirmehdi Seyidzadənin "Qızılquş", "Nərgiz", Əyyub Abbasovun "Azad", "Məlikməmməd" tamaşaları teatrın böyük nailiyyəti idi.

1937-ci ilin axırlarından etibarən uşaq və gənclər teatrları Dövlət İncəsənət İdarəsinin ixtiyarına verildi. Həmin ildə Aleksandr Tuqanov M.Qorki adına Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının bədii rəhbəri təyin olundu. 1939-cu ilin mayında Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı 10 illik yubileyini əlamətdar bir hadisə kimi qeyd etdi.

Teatr 1952-ci ili yeni binada qarşıladı. Teatrın 50-ci illərdəki fəaliyyəti, xüsusilə, Y.Əzimzadənin "Anacan", "Aprel səhəri", R.İsmayılovun "İki həyat", M.Təhmasibin "Çiçəkli dağ", Ə.Abbasovun

"Aqil və Sərvinaz", rus bölməsində isə "Pavlik Morozov", "Sombrero", "Valya Kotik", "Polad üzük" tamaşalarının səhnə taleyi uğurlu olubdu.

1954-cü il fevralın 28-də Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 25 illik yubileyi təntənəli surətdə qeyd olundu. Bu münasibətlə teatrın yaranması və inkişafındakı xidmətlərinə görə M.Haşımov, Ə.Ağayev və A.Qurbanov respublikanın xalq artisti, dramaturq Ə.Abbasov, rejissor Z.Nemətov, rəssam N.Ovçinnikov əməkdar incəsənət xadimi, rejissor K.Həsənov, artistlərdən M.Dadaşov, Y.Dadaşov, S.Ələsgərov, C.İsgəndərova, A.Lejnyov, A.Lizina respublikanın əməkdar artisti fəxri adı ilə təltif olundular. Yubileydən sonra teatr 26-cı mövsümünü 1954-cü il sentyabrın 10-da C.Cabbarlının "Yaşar" pyesinin tamaşası ilə açdı.

1955-ci ilin oktyabrında teatr ilk dəfə olaraq V.Şeksprin yaradıcılığına müraciət edərək, onun "İki veronalı" pyesini tamaşaya hazırladı.

Teatrın 60-cı illərdəki fəaliyyəti xüsusilə səmərəli olub, öz inkişafı tarixində ən məhsuldar dövr kimi qiymətləndirilib. Teatrın baş rejissoru, həssas pedaqoq, mahir təşkilatçı Zəfər Nemətovun bu sahədəki fəaliyyəti xüsusi qeyd olunmalıdır. Əminə Yusifqızı, Solmaz Qurbanova, Firdovsi Naibov, Zərnişan Fətəliyeva, Sona Babayeva, Həsən Əbluç, Viktor Semerenko, İvetta Ryabova, Arnold Xarçenko, Nelli Məmmədova, Tatyana Xaritonova və başqa gənc aktyorlar onun müəllimlik qayğısı sayəsində yetişiblər.

Yarandığı ilk illərdə müasirliyə meyl edən, həyatın vacib sahələrinə, problemlərə toxunan teatrda belə ənənələri yaşadan yeni yaradıcı nəsil həmişə olub. Yeni gələn hər nəsil öz isti nəfəsi, ağıl və düşüncəsi, məhəbbətilə teatra yeni təravət gətirib. Estafeti qəbul edən istedadlı aktyorlardan T.Qasımov, G.Qurbanova, Y.Qarayev, A.Mustafayeva, S.Babayeva, A.Mirzəyev, M.Əlixanoğlu, Ə.Məmmədov, R.Qəniyev, K.Artyomov, Z.Xarçenko, R.Mahmudzadə, rejissorlardan A.Nemətov, M.Tağıyev, H.Əbluç, rəssamlardan T.Tahirov, E.Məmmədov və başqalarının teatrın ümumi yaradıcılıq müvəffəqiyyətlərində ayrıca payı var. Yarım əsrlik bir dövrdə tamaşaçılarına nümunəvi xidmət göstərən, onların estetik tərbiyəsində mühüm rol oynayan Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı səmərəli fəaliyyətinə görə 1979-cu ildə yüksək mükafata - "Şərəf nişanı" ordeninə layiq görülüb.

Teatr 1989-cu ildən öz tamaşaçılarını yeni binada qarşılayır. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı öz ənənəsinə sadiq qalaraq, hər yeni teatr mövsümündə yeni-yeni tamaşalarla geniş tamaşaçı kütləsi qarşısında çıxış edir.

Teatr 1989-cu ilin dekabrında K.Aslanovun "Yuxulama" tamaşası ilə Moskva şəhərində Yermolova teatrında keçirilən beynəlxalq teatr festivalında, 1993-cü ilin oktyabrında isə Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən "Şərq-Qərb teatrı" festivalında uğurla çıxış etdi. Tamaşanın quruluşçu rejissoru Azərpaşa Nemətov, quruluşçu rəssamı Elçin Məmmədovdur.

Son illərdə teatr görkəmli yazıçı-dramaturq Elçinin yaradıcılığına müraciət edərək onun üç əsərini repertuarına daxil edib: "Mahmud və Məryəm", "Ölüm hökmü" və "Ağ dəvə". Teatr "Mahmud və Məryəm" tamaşası ilə 2002-ci ilin may ayında Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində keçirilən türk dilli xalqların Beynəlxalq Novruz festivalından uğurla qayıdıb. Tamaşanın quruluşçu rejissoru Loğman Kərimov, quruluşçu rəssamı Elçin Babayevdir.

Bu il Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının 75 yaşı tamam olur. Bu illər ərzində teatr uşaqlara və yeniyetmələrə xidmət göstərərək, gənc nəslin mənəvi, əxlaqi təmizlik, xeyirxahlıq, vətənpərvərlik ruhunda tərbiyə edilməsində mühüm rol oynayıb. Belə ki, 75 il ərzində 513 yeni tamaşa hazırlanıb, 33 min 500 tamaşa göstərilib və 8 milyon 40 min tamaşaçı qarşılanıb.

Müasir dramaturgiyamızın parlaq nümunələri ilə yanaşı, teatrın repertuarına dünya və Azərbaycan klassiklərindən V.Şekspirin, J.B.Molyerin, F.Şillerin, A.Puşkinin, A.Ostrovskinin, N.Qoqolun, M.F.Axundovun, N.B.Vəzirovun, N.Nərimanovun, C.Cabbarlının, S.S.Axundovun, A.Şaiqin və başqalarının əsərləri daxil olub. Azərbaycan teatrının ifaçılıq məktəbinə çox görkəmli sənətkarlar verib. Xalq artistləri Ağadadaş Qurbanov, Əliağa Ağayev, Süleyman Ələsgərov, Firəngiz Şərifova, Yusif Vəliyev, Hüseynağa Sadıxov, Lütfi Məmmədbəyov, Aleksey Lednyov, Georgi Siqankov, Solmaz Qurbanova, Tariyel Qasımov, Xuraman Hacıyeva, Gülşən Qurbanova, əməkdar artistlər Məmmədağa Dadaşov, Osman Hacıbəyov, Rəhilə Məlikova, Susanna Məcidova, Məfxurə Yermakova, Firdovsi Naibov, Tamara Razumovskaya, Anatoli Dobronetski, Arnold Xarçenko, Cəvahir İsgəndərova, Rüxsarə Ağayeva, Ağaxan Salmanov, Rafiq Hüseynov, Ədalət Məmmədov, Yasin Qarayev, Azər Mirzəyev, Lətifə Əliyeva, Gülşad Baxşıyeva, Nübar Novruzova, Naibə Allahverdiyeva və başqaları artıq Azərbaycan teatr tarixində özünəməxsus yer tutublar.

75 yaşlı Azərbaycan Dövlət Gənc Tamaşaçılar teatrı bu gün də öz ənənəsinə sadiq qalaraq, yeni-yeni uğurlu tamaşalarla öz tamaşaçılarını sevindirir.

**Ələsgər Muradxanlı,**
**Gənc Tamaşaçılar Teatrının truppa müdiri**